UOT 331.01

*Mahir Tapdıq oğlu ABBASZADƏ*
*i.f.d., AMEA-nın İqtisadiyyat İnstitutu, doktorant*

# AZƏRBAYCANDA REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFININ TƏMİN OLUNMASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN ROLUNUN DƏYƏRLƏNDİRİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi -** müasir bazar iqtisadiyyatı şəraitində regionların sosial-iqtisadi inkişafının təmin olunmasında sahibkarlıq fəaliyyətinin rolunu dəyərləndirmək, onun səmərəli inkişaf istiqamətlərini müəyyən etməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – sistemli və kompleks təhlil əsasında, sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsinə metodoloji yanaşmalar və bu istiqamətdə beynəlxalq təcrübəsinin mühüm prinsiplərindən, müxtəlif tədqiqatçıların elmi əsərlərində verilmiş elmi müddəalardan ibarətdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – tədqiqatda alınmış nəticələrdən, irəli sürülən təkliflərdən regionlarda sahibkarlıq fəaliyyətinin inkişafı və idarə edilməsi mexanizimlərinin təkmilləşdirilməsində, regionların sosial-iqtisadi inkişafının təmin edilməsində istifadə edilə bilər.

**Tədqiqatın nəticələri** – regionlarda sosial-iqtisadi inkişafın təmin olunmasında sahibkarlıq fəaliyyətinin inkişafına və formalaşdırılmasına dair yeni yanaşmaları qiymətləndirmək, səmərəli tövsiyə və təkliflər hazırlamaqdan ibarətdir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ölkə regionlarında sahibkarlığın inkişaf etdirilməsinin mövcud potensialları araşdırılmış, mövcud problemlərə müəllif yanaşmaları əsasında qiymətləndirmələr aparılmışdır. Məqalədə iqtisadi rayonlar üzrə sahibkarlıq fəaliyyətinin mövcud vəziyyəti təhlil olunmuş, yaranmış problemlərin həlli istiqamətində təklif və tövsiyələr irəli sürülmüşdür.

Məqalədə Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin olunmasında sahibkarlıq fəaliyyətinin rolunun dəyərləndirilməsi məsələlərinə baxılmışdır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, regionların iqtisadi baxımdan inkişaf etdirilməsində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi vacibdir. Məqalədə mövcud problemlər müəyyən edilmiş, eyni zamanda onların həlli məqsədilə təklif və tövsiyələr irəli sürülmüşdür.

***Açar sözlər: sahibkarlıq, iqtisadi tənzimləmə, islahatlar, iqtisadi inkişaf, milli iqtisadiyyat, investisiya, region.***

## *Giriş*

Son illər ölkəmizdə davamlı olaraq həyata keçirilən məqsədəuyğun tədbirlər nəticəsində ölkə iqtisadiyyatında davamlı iqtisadi artım müşahidə olunmaqdadır. Məsələn, 2 fevral 2021-ci ildə qəbul olunmuş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in ölkəmizin iqtisadi inkişafında mühüm rol oynayacağı nəzərdə tutulur. İnkişaf etmiş dövlətlərin təcrübəsi onu göstərir ki, yaxın perspektiv dövr ərzində ölkəmizdə iqtisadi artım prosesi tarazlı xüsusiyyətə malik olmalıdır. Bütün iqtisadi sahələr üzrə iqtisadi artım ölkənin davamlı inkişafını təmin edəcəkdir. Qeyd edilən məsələlərin həyata keçirilməsi üçün aşağıdakı iki məqsədə nail olunmalıdır: davamlı və yüksək iqtisadi artımın olması; iqtisadi təsirlərə davamlılıq. Son illərin təcrübəsi onu göstərir ki, milli iqtisadiyyatın rəqabətqabiliyyətinin təmin olunması, dinamik iqtisadi artımın əldə olunması, vətəndaşların məşğulluq səviyyəsinin yüksəldilməsi, ölkənin iqtisadi təhlükəsizliyinin qorunub saxlanılması və s. proseslər dövlətin bu yönümdə səmərəli həyata keçirilən iqtisadi fəaliyyətindən asılıdır. Müvafiq proseslər ilk öncə ölkənin ayrı-ayrı regionlarının yüksək inkişaf etmiş səviyyədə olmasını zəruri edir. Məhz bu baxımdan da ölkəmizdə müşahidə olunan dayanıqlı iqtisadi artımın təmin olunmasında regionların rolu böyükdür [1, s. 255].

Azərbaycan Respublikasının ayrı-ayrı iqtisadi regionları son dövrlər daha dinamik inkişaf etməyə başlamışdır. Ölkədə tarazlı regional inkişafa nail olunması məqsədilə, regional inkişaf proseslərinin tənzimlənməsi üçün ölkə prezidenti İlham Əliyevin tapşırığı ilə “Regionların sosial-iqtisadi inkişafı (2019-2023-ci illər) Dövlət Proqramı” hazırlanaraq qəbul edilmişdir. Sonuncu proqramın qəbulundan sonra regional inkişafın sürətləndirilməsinə, regional inkişafda yaranmış problemlərin aradan qaldırılmasına münasib şərait yaranmışdır [3, s. 305]. Həyata keçirilən tədbirlər nəticəsində, ölkənin iqtisadi regionları davamlı olaraq inkişaf etmiş, mövcud iqtisadi potensialdan daha effektiv istifadə olunmağa başlanılmışdır. Son illər qəbul olunmuş dövlət proqramlarında milli iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafına şərait yaradılması, azad sahibkarlığa təminat verilməsi, ölkədə ədalətli rəqabət mühitinin formalaşdırılması və s. məsələlər əsas prioritetlərdən hesab olunur.

**Regionlarda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin əsas xüsusiyyətləri**

Müasir bazar iqtisadiyyatı xüsusi mülkiyyət, azad sahibkarlıq, iqtisadi maraq, o cümlədən, milli iqtisadi sahələr üzrə dövlətin rolunun məhdudlaşdırılması və s. ilə səciyyələnir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müasir bazar münasibətləri şəraitində xüsusi mülkiyyət ilə azad sahibkarlıq arasında sıx əlaqə mövcuddur. Bundan başqa bazar münasibətlərinin mövcud olduğu zamanda istehsal vasitələri üzərində xüsusi mülkiyyətin üstünlük təşkil etdiyi şəraitdə azad sahibkarlıq fəaliyyəti sürətlə inkişaf edir. Ölkəmizdə mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün münbit şərait formalaşdırılmış, o cümlədən bu sahənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində davamlı tədbirlər reallaşdırılmışdır. Tərtib olunmuş mövcud qanunvericiliyə əsasən Azərbaycan Respublikası ərazisində hər bir ölkə vətəndaşı, eləcə də mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər və s. qanunvericiliklə qadağan olunmayan istənilən formada sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq imkanlarına malikdirlər.

Nəzərə almaq lazımdır ki, rəqabətqabiliyyətli bazar iqtisadiyyatının formalaşmasının mühüm şərtlərindən biri də effektiv olaraq azad sahibkarlıq fəaliyyətinin reallaşdırılması və genişləndirilməsidir. Belə ki, sahibkar rəqabət qabiliyyətli fəaliyyətini davam etdirmək üçün həmişə çalışır ki, mövcud potensialdan daha düzgün istifadə edərək ixrac yönümlü yüksək keyfiyyətli məhsul və ya xidmət istehsalının həcmini artırsın və daha çox gəlir əldə etsin. Məhz buna görə də ölkədə səmərəli bazar münasibətlərini formalaşdırmaq, ölkə regionlarının iqtisadi inkişafını təmin etmək üçün qeyri-neft sektoru üzrə sahibkarlıq fəaliyyətinin inkişafına xüsusi diqqət ayrılmalıdır.

İqtisadi regionlar üzrə sahibkarlığın inkişafının stimullaşdırılması, xüsusilə kənd təsərrüfatı istehsalını artırmaqla, vətəndaşların gündəlik tələbat məhsullarına olan tələbatının tam ödənilməsinə, rəqabət mühitinin formalaşmasına səbəb olmaqla, məşğulluq probleminin həllinə və dövlət büdcəsi gəlirlərinin artmasına kömək edə bilər. Qeyd olunanları nəzərə alaraq, ölkənin ayrı-ayrı iqtisadi regionları üzrə sahibkarlığın müxtəlif formalarının sürətlə inkişaf etdirilməsi mütləqdir [2, s. 211].

Azərbaycanda iqtisadi rayonlar müxtəlif demoqrafik və sosial-iqtisadi vəziyyətlə, əmək və maliyyə potensialı, material-texniki, texnoloji, təbii vəziyyətlə fərqlənir. Bundan başqa ölkənin balanslaşdırılmış və dayanıqlı inkişafı daimi dövlət tənzimlənməsi olmadan mümkün deyildir. Müasir şəraitdə son regional inkişaf proqramının uğurlu icrası nəticəsində iqtisadi regionların sürətli inkişafı təmin olunmuşdur. Artıq hər bir iqtisadi region mövcud resurslardan tam və səmərəli istifadə olunmasında, eləcə də onların dövriyyəyə cəlb edilməsində tam maraqlıdır.

Ölkənin bütün regionlarının resurs potensialı və inkişaf imkanları tam eyni deyildir. Son illər iqtisadi göstəricilərin adambaşına düşən ən aşağı səviyyəsinə, iqtisadi potensialı aşağı olan regionlara da rast gəlinir. Məhz bu baxımdan da regionların sosial-iqtisadi inkişaf səviyyəsinə iqtisadi sahələr üzrə dəyişikliklərin tempi və miqyası kimi faktorlar da təsir edir. Regionların yaxın perspektiv dövr üzrə inkişafının təmin olunmasında onun tarixən formalaşmış ixtisaslaşma səviyyəsi, mövcud təbii-resurs potensialından istifadə səviyyəsi, xarici iqtisadi əməkdaşlıq üçün coğrafi vəziyyətin əlverişliliyi də xüsusi rol oynayır [4, s. 255].

*Cədvəl 1*

***Azərbaycan Respublikasında fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə bölgüsü (2019)***

| Göstəricilər | Cəmi | Mikro | Kiçik | Orta |
|---|---|---|---|---|
| Respublika üzrə | 271304 | 262622 | 5956 | 2726 |
| Bakı ş. | 129989 | 124317 | 4026 | 1646 |
| Abşeron iqtisadi rayonu | 22786 | 22236 | 365 | 185 |
| Gəncə-Qazax iqtisadi rayonu | 24825 | 24374 | 290 | 161 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 13327 | 13055 | 164 | 108 |
| Lənkəran iqtisadi rayonu | 13653 | 13421 | 151 | 81 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 11270 | 11047 | 140 | 83 |
| Aran iqtisadi rayonu | 37403 | 36664 | 480 | 259 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 4287 | 4178 | 73 | 36 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 381 | 350 | 24 | 7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 5937 | 5822 | 75 | 40 |
| Naxçıvan Muxtar Respublikası | 7446 | 7158 | 168 | 120 |

Aparılmış təhlil onu göstərir ki, ölkə üzrə mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı son illər artmaqdadır. 2019-cu ildə bu göstərici 271304 olmuşdursa, onun da 262622 nəfəri mikro, 5956 nəfəri kiçik, 2726 nəfəri orta sahibkarlıq subyektlərinin payına düşmüşdür [5].

Bakı şəhəri üzrə sabikarlıq subyektlərinin sayı 129989 nəfər olmuşdur. Onun da 124317 nəfəri mikro, 4026 nəfəri kiçik, 1646 nəfəri orta sahibkarlıq subyektlərinin payına düşmüşdür. Bundan başqa sahibkarlıq subyektlərinin sayı Gəncə-Qazax iqtisadi rayonu üzrə 24825 nəfər, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 13327 nəfər, Lənkəran iqtisadi rayonu üzrə 13653 nəfər, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 11270 nəfər olmuşdur. Eyni zamanda Aran iqtisadi rayonu üzrə bu göstərici 37403 nəfər, Yuxarı-Qarabağ iqtisadi rayonu üzrə 4287 nəfər, Kəlbəcər-Laçın iqtisadi rayonu üzrə 381 nəfər, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 5937 nəfər, Naxçıvan Muxtar Respublikası üzrə 7446 nəfər təşkil etmişdir. Qeyd edək ki, son illər sahibkarlıq fəaliyyəti regionlarda daha da genişlənməkdədir.

Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişaf tempi mikro, kiçik və orta sahibkarlığın inkişaf səviyyəsindən asılıdır. Bildiyimiz kimi, bazar iqtisadiyyatı şəraitində dövlətin iqtisadi proseslərə müdaxiləsi yalnız müəyyən tənzimləyici vasitələrlə reallaşır. Regionlar üzrə sahibkarlığın inkişafı da dövlət tənzimlənməsindən birbaşa asılıdır. Məhz buna görə də dövlət tənzimlənməsi məsələsi xüsusi əhəmiyyət daşıyır. Araşdırmalar göstərir ki, inkişaf etmiş ölkələrdə, sahibkarlığın inkişafı məqsədilə əsas istiqaməti fiskal tənzimləmə prosesi təşkil edir. Bütün dünyanı bürüyən böhran və tənəzzül şəraitində dövlətin müvafiq olaraq fiskal tənzimlənməsinin rolu da artır. Bu zaman əsasən proqressiv vergitutmaya xüsusi yer ayrılır ki, bunun da nəticəsində gəlirlərin yenidən bölüşdürülməsi və ödəniş qabiliyyətli əhalidən verginin tutulması prosesi baş verir. Postsovet məkanı ölkələrinin təcrübəsinə əsasən mikro, kiçik və orta sahibkarlığın müxtəlif formalarının prioritet inkişafı üçün diferensial vergi güzəştləri üzrə kompleks sistem tətbiq olunur və ölkənin iqtisadi baxımdan zəif regionlarında əlverişli vergi mühiti formalaşdırılır.

Azərbaycan Respublikasında vergi tənzimlənməsi prosesinin zəruriliyi ölkənin bazar iqtisadiyyatı şəraitində olması ilə başlıdır. Müvafiq prosesi aşağıdakı faktorlar daha da sürətləndirir: iqtisadi regionlar üzrə yoxsulluq səviyyəsinin müəyyənləşdirilməsi, onların səviyyəsinin ölkənin sosial-iqtisadi inkişaf tempinə uyğunlaşdırılmasının zəruriliyi; iqtisadi regionlar üzrə vətəndaşların yaşayış keyfiyyətində və səviyyəsində, o cümlədən, regionun iqtisadi potensialında kəskin formalaşmış fərqlərin mövcudluğu; müasir bazar mexanizminin milli iqtisadiyyatın dayanıqlı inkişafının təmin olunmasında tənzimləmə imkanlarının qeyri-mövcudluğu və s.

İnkişaf etmiş dövlətlər ilə ölkəmizdə mövcud vergitutma təcrübəsinin müqayisəli təhlili onu göstərir ki, iqtisadi regionlar üzrə vergi tənzimlənməsinin eyni bir vasitəsinin tətbiqinin məqsədindən asılı olaraq o, səmərəli və qeyri-səmərəli ola bilər. Ölkəmizdə səmərəli vergi alətlərindən istifadənin tədqiqi son illərdə onların ölkənin sosial-iqtisadi inkişafının təmin olunmasında mühüm rol oynadığını göstərmişdir.

Ölkəmizdə regionlar üzrə vergi tənzimlənməsinin nəticəliliyi onun vergitutma bazasının minimum və maksimum hədlərini müəyyən edən səmərəlilik meyarlarına uyğunluğundan asılıdır. Bu zaman minumum hədd kimi dövlət büdcəsinin illik tələbatı götürülür. Nəzərə almaq lazımdır ki, vergitutma prosesi dövlətin əsas funksiyalarının maliyyələşdirilməsi üçün büdcənin illik tələbatından aşağı olmamalıdır. Minimum həddən fərqli olaraq yuxarı həddə isə ölkə üzrə ümumi vergi ödəyicilərinin ödəniş qabiliyyətli səviyyəsi əsas götürülür. Ümumi proseslər düzgün tənzimlənmədikdə vergi ödəyicilərinin gəlirləri deyil, adekvat olaraq vergi daxilolmaları da tədricən azalacaqdır.

Vergi tənzimlənməsinin effektivliyi iqtisadi artımın təmin olunmasını, vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsinin stimullaşdırılmasını şərtləndirir. Ölkəmizdə vergitutmanın effektivliyinin təmin olunması mexanizmi milli iqtisadiyyatın mövcud vəziyyətindən, vətəndaşların həyat səviyyəsindən və cəmiyyət tərəfindən nəzərdə tutulan prioritet məqsədlərindən asılı olaraq təşkil olunmalıdır. Respublikamızda vergi tənzimlənməsi yalnız milli iqtisadi sahələrin inkişafına deyil, ayrı-ayrı iqtisadi regionların sosial-iqtisadi inkişaf səviyyələrinin bərabərləşdirilməsinə, məşğulluq səviyyəsinin yüksəldilməsinə və yoxsulluq səviyyəsinin azaldılmasına istiqamətlənmişdir.

***Regionlarda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsinin əsas istiqamətləri***

Regionlar üzrə vergi tənzimlənməsi prosesini dövlət tərəfindən qarşıya qoyulan strateji vəzifələrin reallaşdırma nəticələri üzrə də qiymətləndirmək mümkündür. Belə ki, ayrı-ayrı iqtisadi regionların inkişafının tənzimlənməsinin əsas məqsədi iqtisadi sahələrin inkişaf tempinin təmin olunması, yerli büdcələrin formalaşdırılması və vergi ödəyicilərinin maraqlarının nəzərə alınmasından ibarətdir [1, s. 258]. Qeyd edək ki, vergi daxilolmalarının paylanması, vergitutma səviyyəsi və kapitalın istifadə olunması məsələləri üzrə dövlətin, regionların və vergi ödəyicilərinin maraqlarının nəzərə alınması zəruridir. Milli iqtisadiyyatın regional baxımdan inkişafına mənfi təsir göstərən faktorlar əsasən ölkənin sənaye potensialının və onunla bağlı infrastruktur obyektlərinin əsas hissəsinin Bakı şəhərində yerləşməsi, regionlarda olan təsərrüfat subyektlərinin fəaliyyətinin zəifləməsi ilə bağlıdır. Məhz bu və ya digər faktorlar regionların inkişafı üzrə kəskin diferensiasiyanın yaranmasına, mövcud iqtisadi potensialdan qeyri-səmərəli istifadəyə səbəb olmuşdur. Buna görə də iqtisadi regionların sosial-iqtisadi baxımdan davamlı inkişafının təmin olunması vətəndaşların sosial-rifah halının yüksəldilməsi, yeni iş yerlərinin açılması, aqrar sektorun inkişafının təmin olunması, dövlət tərəfindən davamlı tədbirlərin reallaşdırılmasını təmin etmişdir. Regionların 2019-2023-cü illərdə sosial-iqtisad inkişafına dair dövlət proqramı bu sahədə müsbət irəliləyişlərə nail olmanı təmin etmişdir. Qəbul olunmuş proqramda növbəti illər ərzində iqtisadi regionlar üzrə milli iqtisadiyyatın inkişafını sürətləndirən faktorlar, onunla bağlı dövlət siyasətinin və dəstəyinin prioritet istiqamətləri təyin olunmuşdur.

Ölkə üzrə regionların inkişafında nəzərdə tutulan məqsədlərə nail olmaq üçün qeyd edilən tədbirlərin həyata keçirilməsi zəruridir: vətəndaşların məşğulluq səviyyəsinin artırılması yönümündə dayanıqlı tədbirlərin həyata keçirilməsi; regionlarda istehsal və xidmət sahələri üzrə müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin səviyyəsinin beynəlxalq standartlara çatdırılması; kiçik və orta sahibkarlar arasında ixracyönümlü məhsul istehsalının xidmət təklifinin təşviqləndirilməsi; regionlarda sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı effektiv tədbirlərin reallaşdırılması və sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin artırılması və s.

## *Nəticə*

Aparılmış təhlillər onu göstərir ki, ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanılması mühüm aktuallıq kəsb edir. Regionlar üzrə mikro, kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişafı

məşğulluq sahəsində mövcud problemlərin aradan qaldırılmasında da mühüm rol oynayır. Məlumdur ki, məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran faktorların aradan qaldırılması və məşğulluq səviyyəsinin yüksəldilməsini təmin edən şəraitin formalaşdırılmasıdır. Məhz buna görə də iqtisadi regionlar üzrə mikro, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlərin davam etdirilməsi zəruridir. Nəzərə almaq lazımdır ki, qarşıdakı illərdə məşğulluq siyasətinin davam etdirilməsində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə vətəndaşların effektiv məşğulluğunun təmin edilməsindən ibarət olacaqdır. Ümumiyyətlə, qarşıya qoyulmuş məqsədə nail olmaq üçün qeyd edilən tədbirlərin reallaşdırılması məqsədəuyğundur: iqtisadi rayonlarda mühüm iqtisadi sahələr üzrə məşğulluğun effektiv inkişafını təmin edən investisiya fəallığının dəstəklənməsi; mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli şəraitin formalaşması, onların ixrac imkanlarının stimullaşdırılması; əlverişli vergi güzəştlərinin tətbiq edilməsi, işğaldan azad olunmuş ərazilərdə aqrar sahə üzrə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və s.

## ƏDƏBİYYAT


1. Alıyev İ.H., İbadov S.A. və b. Azərbaycan iqtisadiyyatı, Bakı: Ağrıdağ, 1998, 396 s.
2. Əliyev A.Ə., Şəkərəliyev A.S. Bazar iqtisadiyyatının əsasları, Bakı: Elm, 2002, 265 s.
3. Abdullayev K.N. Regional təhlükəsizliyin təmin olunmasında “Şərq-Qərb” beynəlxalq nəqliyyat dəhlizinin rolu // Şəxsiyyət, Cəmiyyət, Dövlət: Qarşılıqlı münasibətlərə müasir yanaşmalar (Respublika elmi konfransının materialları), Azərbaycan Respublikası Təhsil Nazirliyi, Mingəçevir Dövlət Universiteti, Mingəçevir.: MİQ poliqrafiya nəşr. 2019, s. 304-305.
4. Волгина Н.А. Международная экономика, Москва: Эксмо, 2010, 480 с.
5. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/


***Махир Тапдыг оглы Аббасзаде***
***д.ф.э., Институт Экономики НАНА, докторант***

## Оценка роли предпринимательской деятельности в обеспечении социально-экономического развития регионов в Азербайджане


### *Резюме*

**Цель исследования** – оценить роль предпринимательской деятельности в обеспечении социально-экономического развития регионов в условиях современной рыночной экономики, определить направления ее эффективного развития.

**Методология исследования** – на основе системного и комплексного анализа, методологических подходов к оценке предпринимательской деятельности и важнейших принципов международной практики в этом направлении, состоит из научных положений, приведенных в научных работах различных исследователей.

**Практическая значимость исследования** - результаты, полученные в ходе исследования, предложения могут быть использованы для совершенствования механизмов развития и управления предпринимательской деятельностью в регионах, для обеспечения социально-экономического развития регионов.

**Результаты исследования -** заключаются в оценке новых подходов к развитию и формированию предпринимательской активности в обеспечении социально-экономического развития регионов, выработке эффективных рекомендаций и предложений.

**Оригинальность и научная новизна исследования -** изучены существующие потенциалы развития предпринимательства в регионах страны, сделаны оценки на основе авторских подходов к существующим проблемам. В статье анализируется современное состояние предпринимательской активности в экономических регионах, даются предложения и рекомендации по решению проблем.

В статье рассмотрены вопросы оценки роли предпринимательской деятельности в обеспечении социально-экономического развития регионов Азербайджана. Опыт развитых стран показывает, что расширение предпринимательской деятельности важно для экономического развития регионов. В статье были определены существующие проблемы, а также выдвинуты предложения и рекомендации для решения существующих проблем.
***Ключевые слова: предпринимательство, экономическое регулирование, экономические реформы, экономическое развитие, национальная экономика, инвестиции, регион.***

***Mahir Tapdig Abbaszade***
***PhD in economnics, Institute of Economy of ANAS, doctoral student***

## Assessment of the role of entrepreneurship in ensuring the socio-economic development of regions in Azerbaijan

***Summary***

**The purpose of the research** - is to assess the role of entrepreneurship in ensuring the socio-economic development of the regions in a modern market economy, to identify areas for its effective development.

**The methodology of the research** - based on systematic and complex analysis, methodological approaches to the assessment of entrepreneurial activity and important principles of international experience in this area, consists of scientific provisions given in the scientific works of various researchers.

**The practical importance of the research** - the results obtained in the study, the proposals can be used to improve the mechanisms of development and management of entrepreneurial activity in the regions, to ensure the socio-economic development of the regions.

**The results of the research -** the results of the study are to evaluate new approaches to the development and formation of entrepreneurial activity in ensuring socio-economic development in the regions, to develop effective recommendations and proposals.

**The originality and scientific novelty of the research -** existing potentials for the development of entrepreneurship in the regions of the country were studied, assessments were made on the basis of the author's approaches to existing problems. The article analyzes the current state of entrepreneurial activity in economic regions, makes suggestions and recommendations to solve the problems.

The article discusses the issues of assessing the role of entrepreneurship in ensuring the socioeconomic development of regions in Azerbaijan. The experience of developed countries shows that it is important to expand entrepreneurial activity in the economic development of the regions. The article identified the existing problems, at the same time, proposals and recommendations were put forward to solve the existing problems.
***Key words: entrepreneurship, economic regulation, economic reforms, economic development, national economy, investment, region.***